*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  31 yanvar 2018-ci il  № 8 (2224)  Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçib

### Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib

*Məlum olduğu kimi, yanvarın 29-da regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Bu tədbirdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin son illər qazandığı uğurlardan danışıb.*



Dövlət başçısı Cocuq Mərcanlı kəndinin bərpası məsələsinə də toxunub: "Məcburi köçkünlər üçün yeni binaların, evlərin tikintisi davam etdiriləcək. Bu məsələyə çox böyük diqqət göstərilir. Bu günə qədər 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Keçən il biz Cocuq Mərcanlı kəndinin bərpasını təmin etdik. Bu, tarixi hadisədir. Eyni zamanda, Şıxarx qəsəbəsində böyük şəhərcik tikilib - 1170 ailəlik, Cocuq Mərcanlıda isə 150 ailəlik. Bu layihələrin xüsusi əhəmiyyəti var".

Ali Baş Komandan onu da qeyd edib ki, bu layihələr vaxtilə işğal edilmiş və ordumuz tərəfindən işğaldan azad olunmuş torpaqlarda icra edilib: "Bu layihələrin icrası, eyni zamanda, onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və dağıdılmış bu ərazilərdə yeni şəhərlər, qəsəbələr, kəndlər, məktəblər, yaşayış binaları, bütün infrastruktur tikiləcək. Cocuq Mərcanlının və Şıxarxın timsalında biz dövlətimizin, xalqımızın iradəsini göstəririk. Bir daha göstəririk ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq və Azərbaycan köçkünləri öz doğma torpaqlarına getməyə hazırdırlar".

- Bu gün ölkəmizin iqtisadi və hərbi potensialı heç kəsə sirr deyil və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim əsas vəzifəmizdir, - deyə Prezident İlham Əliyev çıxışına davam edib. - Bu məsələ ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu il 20 min köçkün yeni evlərlə təmin ediləcək. Keçən il biz 12 min köçkünü yerləşdirdik. Bu il 4 min ailəyə - ən azı 20 min köçkünə yeni evlər veriləcək. Beləliklə, evlərlə, mənzillərlə, yaxşı şəraitlə təmin ediləcək köçkünlərin sayı təqribən 290 minə yaxın olacaqdır. Ancaq bu, minimum proqramdır, əgər il ərzində imkan olarsa, biz bu sayı artıracağıq.

Çıxışı zamanı ölkədə sosial-iqtisadi inkişafın nəticələrinə toxunan Prezident İlham Əliyev sonda onu da qeyd edib ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. "Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq. Biz düzgün yoldayıq, düzgün siyasət aparırıq. Siyasətimiz xalqımızın maraqlarını təmin edir, dövlətimizi gücləndirir".

**AZƏRTAC-ın materialları əsasında**



Artilleriyaçılarımızın peşəkarlığı gündən-günə artır

2-ci səhifədə



O tarixə Böyük Qələbə deyəcəyik!

3-cü səhifədə



Gəncliyin amalı dövlətçilikdir

4-cü səhifədə



Torpaqlarımızı işğaldan azad edəcəyik

5-ci səhifədə

# Müdafiə naziri ön xətt bölmələrində olub



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ön xətt bölmələrində olan Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən nazirə əməliyyat şəraiti barədə məruzələr edilib.

Bildirilib ki, burada yerləşən bölmələr içməli su, istiliklə, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub.

Dövlətimizin başçısının Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə əminliyini ifadə edən



Müdafiə naziri hərbi qulluqçuların döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Cəbhə bölgəsində yeni inşa edilən bölmələrdən birinin açılışını edən Müdafiə naziri burada yaradılmış şəraitlə tanış olub, şəxsi heyətlə söhbət aparıb və nahar edib.

*Döyüş hazırlığı*

## Artilleriyaçılarımızın peşəkarlığı gündən-günə artır

*Artilleriya döyüşün müqəddəratını həll etmək iqtidarında olan bir qoşun növüdür. 2016-cı ilin uğurlu aprel döyüşləri bizə bir daha artilleriyanın necə böyük gücə malik olduğunu sübuta yetirdi. Artilleriya bölmələrinin qarşısına atəş vasitələrini, döyüş qurğularını, müdafiə sistemini məhv etmək, eyni zamanda düşmənin piyada və digər qoşun növlərinin şəxsi heyətini və silah-sursatını sıradan çıxarmaq tapşırığı qoyulmuşdu. Sevindirici haldır ki, həmin döyüşlərdə verilən tapşırıqlar əsgər və zabitlərimiz tərəfindən yüksək dəqiqliklə yerinə yetirildi və qazanılan o tarixi qələbədə artilleriyaçıların da özünəməxsus payı oldu.*

Vaxt ötdükcə, daha yeni silahların alınması və istifadədə olan silah-sursatın modernləşdirilməsi prosesi də davamlı şəkildə həyata keçirilir. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, müasir tələblərə cavab verən silahların alınması ordumuzun gündən-günə daha da güclənməsinə və regionda şəksiz liderə çevrilməsinə şərait yaradır. Yeni hərbi hissələrin açılışı, hərbi şəhərciklərin salınması, Müdafiə Nazirliyinin bu sahəyə xüsusi önəm verməsi də məhz qoşun və birləşmələrin daha da güclü və hazırlıqlı olmasına hesablanıb. Azərbaycan əsgərinin də bütün tapşırıqların öhdəsindən hər an uğurla gəlmək iqtidarında olması heç kimdə şübhə yaratmır. Yuxarı komandanlığın mütəmadi olaraq cəbhəyanı ərazilərə səfəri, bölmələrin döyüş və mənəvi-psixoloji hazırlığı ilə yaxından maraqlanması da şəxsi heyətin əhval-ruhiyyəsinə müsbət təsir edən və onları daha da ruhlandıran önəmli məqamlardandır. Heç kimə sirr deyil ki, döyüş ruhu yüksək olan əsgər istənilən savaşda qarşısıalınmaz bir cəngavərə çevrilir və nə olursa-olsun, son ana qədər verilən tapşırıqları yerinə yetirmək üçün bütün qüvvə və bacarığını sərf edir. Elə ona görədir ki, qəhrəmanlar, igidlər yetişdirmiş yurdumuzun yeni nəsil nümayəndələri də öz üzərlərində daim çalışırlar ki, düşmənə sarsıdıcı zərbələr endirməyə hazır olsunlar.



Ön xətdə duran Vətən oğullarımız gecə-gündüz, şaxtaya-borana baxmadan düşmənin bütün hərəkətlərini müşahidə edir və təxribatlarının qarşısını qətiyyətlə alırlar.

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin artilleriya divizionunda olarkən, şəxsi heyətin təlim nöqtəsində taqım komandirlərinin başçılığı altında minaatanlardan praktiki atış hazırlığı ilə məşğul olduqlarını izlədik. Əsgərlərin taqım komandirlərinin "döyüşə" və "səfərə" tapşırıqlarını necə həvəslə və dəqiqliklə həyata keçirmələri onu deməyə əsas verdi ki, bölmədə döyüş hazırlığı, həqiqətən də, yüksək səviyyədədir. Taqım komandirinin verdiyi sualların hər biri tam dəqiqliyi ilə cavablandırılırdı. Şəxsi heyətin yüksək hazırlıqlı olması komandirlərinin vəzifə borclarına xüsusi diqqət və tələbkarcasına yanaşmalarının nəticəsi idi. Bu silah haqqında adi təsəvvürü və anlayışı olan şəxs də bilir ki, minaatan heyətdə hərəkətlər zəncirvari ardıcıllıqla olmalıdır. Şəxsi heyətin hər bir nəfəri öz işini elə dəqiqliklə yerinə yetirməlidir ki, bütövlükdə yaxşı nəticə əldə edilsin. Və keçirilən dərslərin lazımi metodiki səviyyədə olması da onu sübut edirdi ki, artilleriyaçılarımız verilən tapşırıqların məsuliyyətini dərk edirlər.

Baş leytenant Rüfət Sadıqov ilə söhbət edirəm. 1992-ci ildə Şirvan şəhərində anadan olan zabit hələ uşaq yaşlarından artilleriya peşəsinə böyük marağının yarandığını deyir. Zabit bu peşəyə marağının necə formalaşdığı haqqında da maraqlı bir xatirəsini bizimlə bölüşdü.

- Silaha olan marağım məktəbəqədərki dövrə təsadüf edir, - deyə baş leytenant Sadıqov danışır. - Uşaq vaxtı əksər yaşıdlarım kimi mən də atıcılığı taxtadan düzəldilmiş "roqatka" ilə öyrənməyə başlamışdım. Hədəfə dəqiq atəş açanlar arasında həmişə qaliblər sırasında olurdum. Orta məktəb dərsliklərində isə məşhur artilleriya generalları Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski barədə mövzuları həvəslə öyrənirdim. Artıq kursant adını qazandıqdan sonra bu ixtisasa istəyim, həvəsim daha da artdı. Yaxşı bir artilleriya zabiti olacağımı özümə söz verdim. Peşəkar və təcrübəli müəllimlərimin əməyi hədər getmədi. Əldə etdiyim bilik və bacarıqlarımı bu gün öz əsgərlərimə həvəslə öyrədir, onların bacarıqlı artilleriyaçı kimi yetişmələri üçün əlimdən gələni əsirgəmirəm. Əsgərlərin həm praktiki, həm də nəzəri bilikləri daim yoxlanılır və təkmilləşdirilir. Çalışıram ki, əsgərlərim hər biri öz işinin öhdəsindən lazımi səviyyədə gəlməyi bacarsın. Artilleriya yüksək riyazi bilik tələb etdiyindən, hesablama prosesində daha ixtisaslı, xidmət müddəti daha çox olan hərbi qulluqçuların köməyindən istifadə edirik.

Müsahibimin qənaətinə görə, bölmənin hazırlıqlı olmasında komandirin məsuliyyəti daha böyükdür. "Bundan əlavə, şəxsi heyətin gündəlik qayğı və problemləri ilə də maraqlanmaq ən başlıca vəzifələrimdən biridir. Çünki istənilən əsgərin hər hansı şəxsi, yaxud xidməti problemləri ola bilər. Buna təbii hal kimi yanaşmaq lazımdır və mən də bu məqama xüsusi diqqət yetirirəm. Əsgər öz komandirini özünə nə qədər doğma və etibarlı bilirsə, bu, qarşıya qoyulmuş bütün tapşırıq və vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə də zəmin yaradır".

Söhbətimi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Anar Əhmədov ilə davam etdirirəm. O da öz növbəsində şəxsi heyətin döyüş hazırlığından danışır. Bildirir ki, təlimlərdə uğurların səbəbi birinci növbədə şəxsi heyətin mükəmməl hazırlığıdır. "Döyüş hazırlığı planına əsasən, gündəlik dərslərimiz sinif otaqlarında, praktiki dərslərimiz isə təyin edilmiş ərazilərdə keçirilir. İctimai-siyasi hazırlıq məşğələləri isə şəxsi heyətin mənəvi-psixoloji hazırlığını təmin edir. Bir sözlə, bölmənin gündəlik fəaliyyəti təsdiq edilmiş plana uyğun yerinə yetirilir".

Komandirin mənə təcrübəli artilleriyaçı kimi təqdim etdiyi əsgər Murad Zeynalovla da söhbətləşdik. 1998-ci il təvəllüdlü Murad söhbət əsnasında bildirdi ki, dayısı Qarabağ müharibəsinin ilk illərində şəhid olub. Üzünü belə görə bilmədiyi dayısı haqqında bəhs edərkən, əsgərimizin mənfur erməni işğalçılarına qarşı nifrəti baxışlarından da hiss olunur. Uğrunda minlərlə Vətən övladının qanlar axıtdığı torpaqlarımızın azad olunacağı günü səbirsizliklə gözlədiyini deyən əsgər Zeynalovun "Vətəni qorumaq hər birimizin borcudur. Onun hər qarışı canımız qədər əzizdir" sözlərini xüsusi bir intonasiya ilə deməsi diqqətimi çox cəlb etdi.

Müşahidələrim onu deməyə əsas verir ki, Azərbaycan əsgəri tezliklə ərazi bütövlüyümüzün təmin olunması üçün qarşısına qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirməyə tam hazırdır.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Ön xətdən reportaj*

# O tarixə Böyük Qələbə deyəcəyik!

*Qışdı. Neçə ay əvvəl yarpaq-yarpaq gümüldənən ağacların, çiçək-çiçək uçunan çəmənlərin cazibədarlığı yoxdu. İnsafsız soyuğun içindən keçib mövqelərimizə - torpaqlarımızın keşiyini çəkən əsgərlərimizin səngərlərinə tələsirik. Soyuqdu. Qışın yaraşığı qar olsa da, yaxınlaşdıqca düşüncələrimi incəldən səngərlərdə qar görmək istəmirəm....*

1992-ci ilin qışında səngərlərdən Bakıya dönüşümüzdə Tovuzun Əlibəyli kəndində yaşı 70-i haqlayan nənənin dediklərini son nəfəsiməcən unuda bilməyəcəm: "Belə ayamda, belə soyuqda-sazaqda canım səngərlərdəki əsgərlərimizin yanındadı. Belə sərt ayamda isti otaq ruhumu canımdan aralayır, ay oğul...". Əzizi bildiyi əsgərlərimizə can yandıran nənənin soyuqdan gömgöy göyərmiş əlindən öpmüşdüm. "Səngərləri əsgərimizin nəfəsi isidir..." - demişdim. İnanmışdı. Aradan on illər keçsə də, belə havalarda kələğayısını gözlərinə sıxıb köks ötürən o nənəni xatırlayıram. "Bu günün nənələri də belə düşünür..." inamıyla köhlən atlarını dağlara sarı səyirdənlərin arxasınca baxan yeniyetmələrin sırasına qarışan nəvəylə babanın da, "göylərə baş çəkən Göyəzən dağının" əzəmətini gözlərinə köçürənlərin də ürəyindən keçənləri duymaq çətin deyil. Hamının düşüncələrini o nənənin düşüncələrinin eyni bilirəm; hamının ruhu Göyəzənlə çiyin-çiyinə dayanan ucalıqlarla çataqlıdı. Azərbaycan əsgərinin torpaqlarımızı qoruduğu o ucalıqlardan birindəyik...

Təpəliklərin, dağ massivlərinin sinəsinin qar örtüyünü görsəm də, zərrəcə üşünmürəm. Yerə-göyə inandığım qədər inanıram ki, soyuq-sazaq Azərbaycan əsgərini üşütməyə qadir deyil. Soyuq-sazaq Vətən sevgisini yaşada-yaşada Vətənə xitabən "Səndən ötrü can verməyə cümlə hazırız!" deyənlərə yaxın düşə bilməz!..

Hələ ki, yollar boyunca qar görünmür. Yal-yamacın arasıyla çəkinə-çəkinə rəngi könül küsdürən bir topa duman sürünür.

Səngərin sinəsində daşa söykənən, daşa mətərislənən daş görürəm. Daş daşın başlanğıcıdı. Daşı daş ucaldıb. Daş daşın ucalığıdı. Daşın daşa belə bənzərsiz dayaq olması könlümü təllendirir. Baxıram, duyuram, görürəm burada əsgərin əsgərə münasibətində də eyni mahiyyəti sezmək çətin deyil. Bunu ordumuzun gücünün, qüdrətinin qaynaqlarından biri bilirəm; təbiətdə daşların bu biçim düzümünün mahiyyətini əsgər dostluğunun mahiyyətiylə eyniləşdirmək keçir könlümdən...

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır.*



Xətaimizin "Bahariyyə"sini xatırlayıram: "Qış getdi, bahar gəldi". "Bu il baharın könül xoşluğunu Qələbə yolunun cəfakeşləri gözəlləşdirəcək. İndi qışdı. Soyuqdu. Sazaqdı. Bu yaşarı düşüncələrin işığında əsgərlərimizin Vətən sevgisiylə isinən səngərlərə çatırıq. Ön mövqedəyik. Əsgərlərimizin arasında soyuğu, sazağı hiss etmirik. Əsən yellər səngərlərimizə meyillənən, gah qaralan, gah bozaran bulud topasını dağıdıb. "Göyəzənin, Aveyin daş sinəsindən qopan yellərin çılğınlığını görən buludlar bu tərəflərdə dolaşmağa cəsarət etməyəcək" - üzü dağlara pıçıldayıram. Döyüş növbətçiliyi aparan əsgərlərimizin baxışlarını bürümüş niyyəti illərin sızıltılarına məlhəm bilirəm. Onlarla döyüş növbətçiliyindən sonra söhbətləşməyi qərara alıram. Bayaqdan bəri kürlük edən sükutu leytenant Şahmar Piriyev pozur:

- Döyüş növbətçiliyi əsgərdən qədərsiz qətiyyət, səbr tələb edir. Qarşı tərəf anbaan izlənilir. Düşmənin bütün tərpənişləri nəzarətdədi. Düşmən çətin hava şəraitindən bəhrələnə bilər. Təxribat törətmək, postlarımıza həmlə etmək istəyəndə əsgərlərimizin sayıqlığını görür, hər dəfə də, necə deyərlər, "qınına çəkilir". Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz Ali Baş Komandanın hər əmrini yerinə yetirməyə hazırdır.

- Torpaqlarımızı işğaldan azad edəcəyik. Yəqin ki, onlar da, - döyüş növbətçiliyi aparan əsgərlərimizi göstərirəm, - qalib əsgər olmaq istəyirlər.

- Əlbəttə. Bu günlərdə ordu sıralarından tərxis edilən əsgər Vasif Qasımov əsgər dostlarına deyib ki, qələbə qazanacaq əsgərlərimizin sırasında olmaq istəyirəm. "Hərbi mundirimi qələbəyədək əynimdən çıxarmaram. Xidmətimi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirəcəm." Belə əsgərlərlə hamımız həmişə qürur duymuşuq.

Bu, Vətənə sevginin - vətənpərvərliyin, mənəvi zənginliyin təzahürüdü, - deyirəm. Fikrimi təsdiqləyən leytenant "Əsgərin mənəvi-psixoloji hazırlığı bu sevgi üzərində qurulur", - deyir...

Göy üzündən sürüşən buludlar dağılmaqdadı. Tufarqanlı Abbasın könlümcə yazılmış gəraylısı düşür yadıma. "Duman, gəl get bu dağlardan, dağlar təzə bar eyləsin". Dağların sinə-sinə əsgərlərimizin cəsarətinin, qətiyyətinin, dövlətə, dövlətçiliyə sədaqətinin açacağı izlər düşəcək...". Həqiqi hərbi xidmətini başa vurandan iki ay sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən xidmətə başlayan çavuş Turac Nəzərovun dediklərini düşüncələrimin davamı bilirəm:

- 2016-cı ilin aprelində burada xidmət edən əsgərlər də torpaqlarımızı işğaldan azad etmək üçün döyüşmək istəyirdilər. Hər birinin döyüş əzmindən, qalib gəlmək ruhundan qürurlanırdıq. Ali Baş Komandan əmr verərsə, hərbi xidmətdə olan əsgərlərimiz həmin ruhla döyüşəcəklər. Torpaqlarımızı işğaldan azad edəcəyik.

Bu gözəl, bu müqəddəs istəyi qürurla dinləyirik - biz də, əsgərlər də.

Mövqenin girişindəki lövhəyə diqqət yetirirəm: "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir. Ümummilli lider Heydər Əliyev". Bu kəlamı məhz bu ucalıqda oxumaq ürəyimi dağa döndərir.

Əsgər Famil Hüseynov deyir ki, biz bu kəlamı döyüş növbətçiliyinə gedəndə də oxuyuruq, qayıdanda da. "Ulu Öndərin bu kəlamını ulu tövsiyə bilirik. Taleyimizi torpaqlarımızı işğaldan azad etməklə yaşayacağımıza and içmişik", - deyir və əsgər yoldaşlarına - Süleyman Eminova, Elçin Səfərliyə, Təbriz Qurbanova baxır. Dördünün də baxışlarında qələbənin işığını görürəm...

"Azərbaycan əsgəri belə düşünür!" - üzü göylərə pıçıldayıram. Mənə belə gəlir ki, Vətənə, torpağa ad olan bütün pıçıltılar kimi bu pıçıltının da mahiyyəti eşidilmək qüdrətindədi...

- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır" qətiyyətli inamı hər birimizin düşüncəsinə hopub - deyirəm. Baxışları döyüş növbətçiliyindən qayıdan əsgərlərdən üzülməyən leytenant Şahmar Piriyev deyir ki, bu kəlam xidmətimizin mahiyyətini müəyyənləşdirir. Ali Baş Komandanın, Müdafiə nazirinin diqqəti, qayğısı Azərbaycanın ordu quruculuğunun tərkib hissəsidir. Güclü ordunun hər bir zabiti, hər bir əsgəri yüksək döyüş hazırlığına malikdir. Son irimiqyaslı təlimlər təsdiqlədi ki, bu, Ali Baş Komandanın, Müdafiə nazirinin tələbləri səviyyəsindədir. Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini yerinə yetirməyə qadirdir...

Qışdı.

Havada yaz qoxusu - yaz ovqatı var. 2016-cı ilin aprelində Lələtəpədəydim. Bayrağımızı o mənəvi ucalıqda dalğalandıranların əhatəsində döyüşlərdə düşmənin altı tankını vuran gizir Tahir Misirxanovla kəlmələşirdim. Onda eşitdiklərim ürəyimi dağa döndərmişdi.

Həmin ovqatdayam. Əsgər Elçin Səfərlinin dediklərini bütün əsgərlərimizin düşüncəsi bilirəm:

- Aprel döyüşlərində orta məktəbdə oxuyurdum. Biz də döyüşlərə getmək istədik. İcazə vermədilər. İndi əsgərik. O qələbəni Böyük Qələbəylə tamamlayanların sırasında olmalıyıq.

2016-cı ilin aprelindən az sonra yazdığım "Lələtəpə" poemasının son misralarını xatırlayıram:

*İnam zirvəsisən, Lələtəpəmiz,*
*Səni bayraq edən qollar görünür.*
*Sağın da, solun da yollardı...*
*Burdan*
*Şuşaya aparan yollar görünür!..*

O yolların yolçusu olacaq əsgərlərimiz nə gözəl düşünür! Qürurla, fəxrlə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ruslan Budaqova baxan leytenant Şahmar Piriyev deyir ki, ordumuzun gücünü həm də bu yolların qələbə yolu olacağına inam müəyyənləşdirir.

Qələbə yolu səngərlərdən başlayacaq...

Qələbə yolunun istinad nöqtəsi səngərlər olacaq; səngərlərin sinəsində dalğalanan bayraqların işğaldan azad edəcəyimiz torpaqlarda dalğalanacağı günə az qalıb...

...Qışdı. Bütün məmləkət boyu könüllər yazın təşnəsidi. Hamı 2016-cı ilin yazının ovqatını arzulayır. O ilin yazının gözəlliyi gözlərimizə də, könlümüzə də ecazkar bir rahatlıq gətirmişdi. Lələtəpəni, Bayraqtəpəni qəhrəmanlıq, cəsarət, hünər zirvəsi kimi sevdik. Yaxın vaxtlarda Cıdır düzü də, Ərgünəş də, Kirs də, Şükürataz da,... bu biçim sevgiylə əhatələnəcək. Azərbaycan əsgərinin Vətənə sevgisiylə, dövlətə, dövlətçiliyə, sədaqətiylə yazacağı əzəmətli tarixə Böyük Qələbə deyəcəyik!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

*2 Fevral Gənclər Günüdür*

# Gəncliyin amalı dövlətçilikdir

Gənclər Günü təkcə gənclərin günü deyil.

Gənclər Günü həm də gənclərə inananların, güvənənlərin, onların qabiliyyətini, malik olduğu potensialı üzə çıxardıb, dövlətçiliyimizin daha da möhkəmlənməsinə istiqamətləndirənlərin günüdür.

Azərbaycanda Gənclər Gününün təsis edilməsi gənclər siyasətinə həssas yanaşmanın təzahürüdür.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan, xalqın təkidli tələbiylə böyük tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətin hərtərəfli dinamik inkişafını təmin etmək məqsədilə gənclərin erudisiyasından, potensial imkanlarından bəhrələnmə dövlətin daxili siyasətinin tərkib hissəsi oldu.

Cəmiyyətin bütün sahələr üzrə hərtərəfli inkişafında insan amili həmişə mühüm rol oynayıb. Bu baxımdan gənclər siyasətinin mahiyyəti dövlətçiliyə sədaqətdir. Başlıca qayəsi gənclərin malik olduğu potensialı üzə çıxarmaq, onu dövlətçiliyə, dövlətçiliyin söykəndiyi sahələrin inkişafına istiqamətləndirmək olan, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası əsasında hazırlanan "Azərbaycan gəncliyi: 2017-2021-ci illərdə Dövlət Proqramı"nın məqsədi gəncləri azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında formalaşdırmaq, onların vətəndaşlıq və vətənpərvərlik tərbiyəsini gücləndirməkdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə, inamla deyib: "Azərbaycan güclü dövlətdir". Deməli, Azərbaycanın gəncliyi güclüdür. Ölkə başçısı deyib: "Azərbaycanın güclü ordusu vardır". Deməli, Azərbaycanın əsgərləri-gəncləri güclüdür.

Azərbaycan Ordusunun böyük əksəriyyəti gənclərdir. Qətiyyətlə demək olar ki, "Azərbaycan gəncliyi: 2017-2021-ci illərdə Dövlət Proqramı" ordu quruculuğunun tərkib hissəsidir.

2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığa malik olduğunu, ordu ilə xalqın birliyini, bu vəhdətin dönməzliyini təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu qələbəni yüksək dəyərləndirdi. Bu dəyər orduya, deməli, həm də Azərbaycan gəncliyinə verilən dəyərdir.

Proqramda qeyd edilir: "Qloballaşma dövründə milli maraqlara və milli dəyərlərə əsaslanan beynəlxalq təcrübəni nəzərə alan Azərbaycan dövlətinin gənclər siyasəti gəncləri ölkədə gedən proseslərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edir". Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli təşkil edir. Sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Azərbaycan əsgəri buna qadirdir. Bu Proqram çağırışçıların vətənpərvərlik duyğularının da formalaşmasında vəsilə olacaq və sabahın əsgərlərinin hərbçi kimi, vətəndaş kimi mətinləşməsini təmin edəcək.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin xətti ilə keçirilən kütləvi vətənpərvərlik tədbirlərində Nazirliyin yüksək rütbəli zabitlərinin çıxışları, tövsiyələri, hərbi xidmətin mahiyyətinin tezisləri təsdiqləyir ki, bu Proqram həm də ordu quruculuğunun tərkib hissəsidir. Hər bir zabit, hər bir əsgər üçün Vətənin müqəddəsliyi hərbi xidmətin qayəsidir. Əsgər döyüş növbətçiliyinə bu sevgi ilə gedir, düşmənin təxribatlarının qarşısını bu sevginin zəmanətiylə alır, - Vətəni bu sevginin işığında qoruyur.

Qəhrəmanlıq zaman-zaman örnək kimi yaşadılır. Şəhidlərimizin qəhrəmanlığı belə örnəklərdir; gənclər qəhrəmanlığı öz dəyərində böyük sevgilərlə yaşadır. Mübariz İbrahimov şəhid olanda 25 yaşı vardı. Samid İmanov şəhid olanda 32 yaşı vardı. Çingiz Qurbanov şəhid olanda 20 yaşı vardı. 2 Fevral Gənclər Günü həm də şəhidlərimizin ruhuna ehtiram günüdür; unudulmayanları həmin gün daha kövrəkliklə, daha böyük sevgilərlə, ehtiramlarla yad edirik.

Bu günlərdə ön xətdə əsgərlərimizlə söhbətləşirdik. Vətəndən, torpaqdan, gözlədiyimiz, təşnəsi olduğumuz Böyük Qələbədən danışırdıq. Kimsə soyuq-sazaq hiss etmirdi. "Gənclik dözümlülükdür" - dedim. Leytenant Şahmar Piriyevin əsgərlərin üzündən üzülməyən baxışlarının doğmalığını, bu doğmalığın qədərsiz sevgi olduğunu duydum:

- Azərbaycana sevgi, hərbi xidməti mənəvi borc bilmə, mənəvi borcu əsl vətəndaş heysiyyətiylə yerinə yetirmə - dözümlülüyün əsası budur. Azərbaycan əsgəri Azərbaycan gəncliyini təmsil edir. Azərbaycan gəncliyi Vətəni belə qoruyanların layiqli davamçıları olacaq. Bu inam hamımızın inamıdı - dövlətçiliyə sədaqətin təsdiqidir.

Hərbi xidmət həm də gənclərin xarakterini möhkəmləndirir, təlimlərdə döyüş hazırlığını artıran əsgərin mənəvi-psixoloji hazırlığı zabitlərin söhbətləriylə, müxtəlif məzmunlu tədbirlərin aşıladığı mahiyyətlə təkmilləşir. Nəticə etibarilə əsgər məfkurəmizin əsgəri olur. Bütövlükdə Azərbaycan gəncliyinin bu xarakterə malik olmasına zəmin yaranır. Bu zəmin Azərbaycan əsgərinin qətiyyətindədi, sevgisindədi, sədaqətindədi. Bu qətiyyət, bu sevgi, bu sədaqət Azərbaycan gəncliyinin mənəvi gücüdü, qüdrətidi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Nümunəvi xidmət*

# Torpaq uğrunda döyüşəcəyik

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissənin bir bölməsindəyik. Torpaqlarımızın müdafiəsində dayanan igid oğullarımızla görüşə gəlmişik. Bizi müşayiət edən hərbi hissənin zabiti Seymur Abıyevlə söhbətimizdə ona "Nümunəvi xidmət" rubrikasına yazı hazırlamaq istəyimi bildirirəm. O, əsgər Elvin Cavadovun adını çəkir. Onun öz xidmətini düzgün təşkil etdiyini, komandirlərin əmr və tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirməsini, şəxsi heyətin rəğbətini qazandığını qeyd edir.*



Adı çəkilən əsgərin yoldaşları da onun haqqında öz fikirlərini bildirirlər.

- Elvinlə eyni bir bölmədə xidmət edirəm. Həm də onu özümə dost seçmişəm. Asudə vaxtlarımızda mülki həyatda keçirdiyimiz günlərlə bağlı xatirələrimizi bölüşürük. Hər zaman mənə işğal altında olan ata-baba oylağına həsrətindən danışır. Təəssüflər olsun ki, Elvin də o yerlər haqqında yalnız valideynlərindən eşidib, öyrənib. O torpaqlara ayaq basacağı, toy-bayram səsi eşidəcəyi günü səbirsizliklə gözləyir. Tezliklə onunla çiyin-çiyinə döyüşərək torpaqlarımızı azad edəcəyimiz günün həsrətindəyik, - deyə əsgər Omar Omarov bildirir.

Əslən Qubadlıdan olan müsahibimin əlini sıxıram. İlk baxışlardan mənə xoş təəssüratlar aşılayan Elvinlə mən də həmsöhbət oluram. Xidmətini başa vurmasına az qalıb. Doğma Qubadlı rayonu uğrunda gedən döyüşlərdə dayısı və babası şəhid olub. Düşmənə nifrəti sifətində də hiss edilən əsgər torpaqlarımızı işğaldan azad edənlərin sıralarında olacağı günü səbirsizliklə gözlədiyini bildirərək söhbətinə davam edir: "Dünyaya göz açmadan dayımı və babamı itirmişəm. Onlar ata-baba torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhid olublar. Valideynlərim onları hər dəfə xatırladanda gözləri dolur. Düzdür, yaxın adamını itirmək ağır bir dərddir, amma qürur hissi ilə hamının yanında deyə bilirəm ki, mən də şəhid nəvəsiyəm! İnanıram ki, mənim kimi bütün əsgərlər də qisas, zəfər günümüzə, Ali Baş Komandanımızın döyüş əmrinə hazırdırlar".

Vətənpərvər əsgərimizlə söhbət etdikcə özümü bir anlıq gələcək döyüşlərdə hiss edirəm. Həsrətini çəkdiyimiz torpaqlarımıza ayağ basacağımız, Kəlbəcərdə, Qubadlıda, Laçında, işğaldan azad olunacaq bütün torpaqlarımızda üçrəngli bayrağımızı sancacağımız anları düşünürəm. Məni bu xəyallardan düşmən tərəfdən atılan güllə səsləri ayırır. Həmsöhbətim olan əsgər də cəld, çevik tərpənir, silahını hazır saxlayıb komandirinin əmrini gözləyir. Elvin kimi igid əsgərlərimizin sayəsində düşmən cavab atəşi ilə dərhal susdurulur.

Əsgər Cavadovdan belə ekstremal vəziyyətlərdə nələr hiss etdiyini öyrənmək istəyirəm. "Atəş səsi eşitdikcə gözlərimin önündə Xocalıda qətlə yetirilən günahsız insanların ah-naləsi dayanır. Balaca Zəhranın canına susayan millətdən biz necə qisasımızı almaya bilərik? Bizlərə qarşı törədilən ağır cinayətlər, vəhşiliklər heç bir zaman unudulmayacaq. Düşmənlərimiz bilməlidirlər ki, doğma Qarabağımızı tezliklə geri alacağıq", - deyir.

Elvin Cavadovla söhbətimizdən bir daha əmin oluram ki, torpaqlarımız əmin əllərdədir, bu səngərlərdə Azərbaycanın neçə-neçə qəhrəman övladı yetişib və onların bir qismi yaxın tariximizdə - 2016-cı ilin aprelində zəfər qazandı. Belə qəhrəmanlarımız isə yüzlərlə yox, minlərlə, on minlərlədir. Elvin Cavadov da onlardan biridir...

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# “Ermənistanın müdafiə naziri azərbaycanlılara qarşı etnik təmizləmə əməliyyatında iştirak edib”



*Ermənistan rəhbərliyi və ölkənin AŞPA-dakı deputatları tarixi həqiqətləri təhrif etməyi dayandırmalıdırlar. Bu, belə davam edə bilməz. Vətənim Dağlıq Qarabağ, anadan olub böyüdüyüm Şuşa şəhəri bu gün Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Belə bir təşkilatda erməni deputatları "Dağlıq Qarabağda demokratiya var" deyərək yalan məlumatlar verməməlidirlər. Silah gücünə və üçüncü ölkənin hərbi qüvvələri hesabına başqa bir dövlətin ərazilərini işğal altında saxlamaqla necə demokratiyadan danışmaq olar?*

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Rövşən Rzayev qurumun sessiyası çərçivəsində keçirilən sərbəst müzakirələrdə çıxışı zamanı deyib. O bildirib ki, Ermənistanın müdafiə naziri Ohanyan 1992-ci ildə Dağlıq Qarabağda komandir olub və dinc azərbaycanlı əhalinin qətlə yetirilməsində, azərbaycanlılara qarşı etnik təmizləmənin aparılmasında birbaşa iştirak edib. “Belə bir vəziyyətdə heç kim demokratiyadan danışa bilməz. Yalnız Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının üzvləri arasında dialoqu, eləcə də itirilmiş etimadı bərpa etməklə ATƏT-in Minsk Qrupunun danışıqlar prosesinə töhfə verə və münaqişənin sülh yolu ilə həllinə nail olarıq.”

Deputat diqqətə çatdırıb ki, beynəlxalq qurumlar, eləcə də AŞPA ərazi mübahisələrinin nizamlanması istiqamətində prinsipial mövqe göstərməli və dünyada yeni münaqişələrə yol açmamaq üçün bütün separatçı qüvvələrə, eləcə də erməni separatçılarına qarşı mübarizədə ciddi yanaşma sərgiləməlidir.

# Torpaqlarımızı işğaldan azad edəcəyik

Ordu dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təminatçısıdır və bütövlükdə cəmiyyəti qorumaqla dövlətin tərkibində olan ən vacib strukturdur. Ona görə də Azərbaycan Ordusunda şəxsi heyətin təlim və tədrisinə xüsusi önəm verilir və onların təbii imkanlarının üzə çıxması üçün hər cür şərait yaradılır. Şəxsi heyətdə müxtəlif qabiliyyətlərin üzə çıxarılması, möhkəmləndirilməsi, öyrədilənlərin mənimsədilməsi, inkişaf etdirilməsi rəhbərlik tərəfindən diqqətdə saxlanılır. Bunun üçün "N" hərbi hissəsində də digər hərbi hissələrdə olduğu kimi şəxsi heyətin vətənpərvər ruhda tərbiyə olunmasına, torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə bu yöndə təbliğatın gücləndirilməsinə, ictimai-siyasi dərslərin keçirilməsinə əhəmiyyət verilir.

Kapitan Xoşbəxt Mahmudov söhbət zamanı bildirir ki, ordu rəhbərliyinin qarşısında duran başlıca vəzifələrdən biri də şəxsi heyətin milli mənlik şüurunun inkişaf etdirilməsi və onlara vətənpərvərlik hisslərinin aşılanmasından ibarətdir. “Ordunun qarşısında duran vəzifələr, sözügedən məsələyə son dərəcə məsuliyyətlə yanaşmağı tələb edir. Şəxsi heyətimizin vətənpərvərlik ruhunun yüksək olması hər mənada ordumuzun və dövlətimizin xeyrinədir. Hansı peşə üzrə əmək fəaliyyəti ilə məşğul olmağımızdan asılı olmayaraq hər kəsdə vətənpərvərlik, torpağa, dövlətə sədaqət hissləri yüksək olmalıdır.”

Zabitlə bu mövzuda söhbət edə-edə ideoloji otağa daxil oluruq. Baş leytenant Rəşad Musayev şəxsi heyətə ictimai-siyasi hazırlıq dərsi keçir. Zabit mövzunu elan edir: "Heydər Əliyev və islami dəyərlərin bərpası. Heydər Əliyev siyasəti Azərbaycanda dini tolerantlığı təmin etmiş və edəcəkdir". Zabit dərsə başlayaraq bildirir ki, bu gün Azərbaycan dünyanın tolerantlıq mərkəzidir: "Azərbaycan bir çox millətlərin və ayrı-ayrı dinlərin dinc yanaşı yaşamasının unikal nümunəsidir. Bütün bunlara görə hər birimiz ümummilli liderimiz Heydər Əliyevə borcluyuq. Yalnız Ulu Öndərimiz öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini tənzim edə bildi. Məhz o, Azərbaycan xalqına müstəqillik, azadlıq, rahatlıq və stabillik bəxş etdi. Azərbaycanda tolerantlıq mədəniyyətinin qorunmasında və bu sahədə böyük islahatların aparılmasında əvəzsiz rol oynadı".




- Onu qeyd edim ki, bu yaxınlarda ən yaxşı ictimai-siyasi hazırlıq qrupunun müəyyənləşdirilməsi üçün yarış keçirildi və şəxsi heyətimiz həmin yarışda birinci yeri tutdu, - deyə kapitan Xoşbəxt Mahmudov bildirir. - İctimai-siyasi dərslərin şəxsi heyətimizin formalaşmasında, nizam-intizamının yüksəldilməsində rolu böyükdür. Həmin dərslər şəxsi heyətimizə dövlətimizin daxili və xarici siyasətini düzgün dərk etməyə, siyasi prosesləri və ölkə rəhbərliyinin siyasi fəaliyyətini daima izləməyə yardımçı olur. Bugünkü dərs də Ümummilli Liderimizin fəaliyyətinə az da olsa işıq salmağa və əsgərlərimizin dahi şəxsiyyət haqqında məlumatlarını daha da genişləndirməyə xidmət edir.

Əsgər Natiq Qocayev bildirir ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası, ölkədaxili siyasi vəziyyətin sabitləşməsi, uğurlu xarici siyasətin yeridilməsi, iqtisadiyyatın dinamik inkişaf etdirilməsi, hərbi quruculuq işlərinin aparılması Ulu Öndərin misilsiz fəaliyyəti ilə bağlıdır. “Onun sayəsində orduda islahatlar aparılıb və vahid komandanlıq yaradılıb. Bu gün fəxr edirəm ki, Ulu Öndər tərəfindən yenidən qurulan, formalaşdırılan, Ali Baş Komandan tərəfindən inkişaf etdirilən bir ordunun əsgəriyəm.”

- Aprel döyüşləri ordumuzun inkişafının bariz nümunəsidi, - deyə əsgər Hikmət Baxşəliyev bildirir. - Bu Qələbə Azərbaycan Ordusunun gücünü, qüvvəsini düşmənə nümayiş etdirdi. Düşmən anladı ki, Azərbaycanın ən müasir silah-sursatla təmin olunmuş çox güclü ordusu və peşəkar hərbçiləri var. Bu ordu istənilən zaman işğal altında olan ərazilərimizi düşməndən təmizləməyə hazırdır.

Əsgərlər Rəsul Əhmədov və Əlizamin Əhmədzadə əminliklə bildirirlər ki, həmin vaxta az qalıb.

Düşmənin qarşısında güclü Azərbaycan Ordusu dayanır. Azərbaycan əsgərinin qoruduğu torpaqlara və azad etdiyi ərazilərə yağılar yaxın düşə bilməzlər. Əsgərlərimiz işğal altında olan digər əraziləri də azad etmək üçün döyüşə hər an hazırdırlar.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Qürur duyuruq ki, belə orduda xidmət edirik!

Vətənpərvərlik tərbiyəsi ailədən başlayır, məktəblərdə davam etdirilir, ictimaiyyətin təsiriylə genişlənir, hərbi xidmətdə formalaşır. Buna görə də "gənc əsgərlərin hərbi xidmətə hazırlığı ailədən başlayır" - deyə bilərik. Ön xətdə yerləşən hərbi hissələrdə bu amilə ciddi diqqət yetirilir.

Hərbi hissəmizə gələn hər əsgərlə fərdi söhbətlər aparırıq. Əsgərin düşüncələrinin mahiyyətini, bu və ya digər məsələyə münasibətini və s. öyrənmək vacibdir. Digər hərbi hissələrdə olduğu kimi, bizim hərbi hissədə də buna həssas yanaşırlar, daha doğrusu, bu, bizim hərbi xidmətimizin tərkib hissəsidir.

Hər əsgərin özünəməxsus xarakteri var. Xarakterlərin, maraqların öyrənilməsi işin təşkilində əhəmiyyətli olur. Fərdi söhbətlərin məzmunu da, aparılması metodları da, təbii ki, hərbi Nizamnamələrin tələblərinə uyğun olur. Bu baxımdan zabitlər söhbəti qarşılıqlı etibar, qarşılıqlı inam əsasında təşkil edir. Əsgər hərbi xidmətinin nədən ibarət olacağını məhz təyin edildiyi hərbi hissədə bilir. Bilir ki, Vətəni qoruyacaq. Məhz hansı mövqedə qoruyacağı ona izah edilir, həmin ərazi ilə yaxından tanış olur. Atıcı silahların istismar xüsusiyyətlərini ilkin hazırlıq mərhələsində mənimsəmiş əsgərlə təkmilləşmə məşğələləri də təşkil olunur ki, bu da onun döyüş növbətçiliyi aparmasında olduqca gərəklidir.




Əsgərin hərbi xidmətində mənəvi-psixoloji hazırlığın roluna da ciddi diqqət yetiririk. Əsgər nəyi qoruduğunu bilir, necə qorumalı olduğunu öyrənir. Bu baxımdan əsgər dostluğu da əhəmiyyətlidir. Hərbi hissəmizdə zabit-əsgər münasibətinin səmimliyinə çalışırıq. Komandirinə inanan əsgər daha güclü əsgərdir. Əsgər dostuna inanan, güvənən əsgər qəlbindən keçənləri onunla bölüşür. Nəticə etibarilə onu narahat edən nə varsa öz həllini tapır. Əsgər üçün hərbi xidmətdən kənar qayğılar olmur. O, yaxşı bilir ki, belə qayğılar onun hərbi xidmətinə təsir göstərə bilər.

Ümumiyyətlə, əsgər hərbi xidmətə ailə problemi ilə gəlməməlidir. Əgər varsa, onu unutmağa çalışmalıdır. Necə deyərlər "Öncə Vətəndir!" - amalıyla yaşamalıdır.

Gənc əsgərlərin hərbi xidmətə hazırlığı müəyyən mərhələləri əhatə edir. Hər mərhələ əvvəlkinin davamı olmaqla, eyni məqsədə yönəldilir - vətənpərvər və bacarıqlı əsgər formalaşdırmaq. Bu prosesin bir mərhələsi də mənəvi-psixoloji hazırlıq sistemidir. Biz Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin tələb və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirməklə bu prosesi uğurla həyata keçiririk.

Əsgərlərimiz torpaqlarımızın işğaldan azad edilməsi amalı ilə xdimət edirlər.

Gənc əsgərlərin döyüş növbətçiliyinə hazırlığı ordu quruculuğunun tərkib hissələrindən biridir və hərbi hissənin komandanlığı, zabitlər məhz bu amil əsasında xidmət edirlər...

Azərbaycan əsgərinin döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır". Zabitlərimiz, əsgərlərimiz doğma ordumuzda xidmət etmələri ilə qürur duyurlar.

**Leytenant**
**Şahmar PİRİYEV,**
**"N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***29 yanvar 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 114 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Məzəm kəndlərində və adsız yüksəkliklərdə və Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***30 yanvar 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 120 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber və Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Məzəm, Qızılhacılı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Acarlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

*Azərbaycan Ordusu - 100*

# Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

(IV məqalə)

Bu sazişdən əlavə iki dövlət arasında hərbi-texniki əməkdaşlıq haqqında da sənəd imzalandı və həmin sənədə müvafiq olaraq Gürcüstan həm hərbi texnika və sursat baxımından, həm də kadrların hazırlanması baxımından Azərbaycana dəyərli kömək göstərdi. Bu respublikadan gətirilmiş olan silah, sursat və təchizat Azərbaycanın qoşun hissələrini, o cümlədən şimal sərhəddini qoruyan qoşun bölmələrinin maddi-texniki imkanlarını xeyli yaxşılaşdırdı.

1919-cu ilin avqustunda kifayət qədər formalaşmış hərbi hissələr Lənkəran bölgəsinin Azərbaycan hökumətinə tabe olmayan qüvvələrdən təmizlənməsi üzrə ilk irimiqyaslı döyüş tapşırığının yerinə yetirilməsində iştirak ediblər. Bu barədə Hərbi Nazirlik Azərbaycan hökumətindən hələ 1919-cu il iyulun əvvəllərində göstəriş almışdı. Həmin vaxt bölgədə nəzarət bolşevik qüvvələrinin əlində idi. Lakin onların elan etdikləri "Muğan Sovet Respublikasının" ömrü də uzun olmadı. Ağqvardiyaçı rus zabitlərinin rəhbərliyi altında olan qüvvələr iyulun 24-25-də Lənkəranın mühüm obyektlərini yenidən nəzarət altına aldılar. İyulun 26-da Prişibdə özlərinin qurultayını çağıran ağqvardiyaçılar bölgədə öz hakimiyyətlərini bərpa etdiklərini bildirdilər. Bu qüvvələri bölgədən sıxışdırıb çıxarmaq və bölgədə Azərbaycan Xalq Cümhuriyyətinin səlahiyyətlərini bərqərar etmək üçün Lənkəran dəstəsi yaradıldı.

1919-cu il avqustun əvvəllərində Lənkəran dəstəsi artıq formalaşdırılmış və hərəkət üçün müəyyən hazırlıq da görülmüşdü. Bununla bağlı avqustun 4-də hərbi nazir müvafiq əmr imzaladı. Həmin əmrlə dəstənin komandanlığı Ümumi qərargahın rəisi general-mayor Həbib bəy Səlimova həvalə olundu və ona Hacıqabul, Salyan, Pokrovsk, Prişib və Lənkəran marşrutu ilə Lənkəran qəzasına hərəkət etmək və orada qayda-qanun bərqərar etmək tapşırılmışdı.

Dəstənin tərkibinə 5-ci Bakı piyada alayı, 3-cü Şəki süvari alayı, 2-ci yüngül topçu, 6-cı dağ topçu və əlahiddə qaubitsa batareyaları, istehkam taqımı və zirehli maşınlar taqımı daxil idi.

Hacıqabulda toplaşan Lənkəran dəstəsi avqustun 13-də Lənkərana doğru hərəkətə başladı. Dəstənin qarşısına qısa müddət ərzində bölgədəki silahlı qüvvələri tərksilah etmək vəzifəsi qoşulmuşdu. Dəstənin qətiyyətli və çevik fəaliyyəti ilə sentyabrın 3-də tapşırılan vəzifə müvəffəqiyyətlə yerinə yetirildi və bölgədəki rus qüvvələri təkrsilah edildilər. Hərbi nazir S.Mehmandarov Lənkəran dəstəsinin fəaliyyətinin nəticələri ilə bağlı 19 sentyabr 1919-cu il tarixli 420 saylı əmrini imzaladı. Əmrin ikinci bəndində deyilirdi: "Lənkəran şəhərinin tutulması, həmin rayonda qayda-qanunun bərpa edilməsi və Azərbaycan hökumətinin təsdiq edilməsi üçün mənim tərəfimdən Lənkərana Ümumi qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç qoşun növündən ibarət xüsusi dəstə təchiz edilmiş və göndərilmişdi.

Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni güclü istidə bizim gənc ordumuz xəstələr və arxada qalanlar olmadan 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yolboyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışlarını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstənin Lənkərandan getməsindən sonra şəxsi səfərim zamanı əmin oldum. Hamıda əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı təmin etdi. Bütün bunlar bir damla qan tökülmədən həyata keçirildi. Azərbaycan Ordusunun birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərən gənc əsgərlərə ürəkdən "sag ol" deyirəm".



Tərksilah zamanı əhalidən və Muğan qüvvələrindən 22 ədəd top alındı. Həmin topların 20 ədədi tam işlək vəziyyətdə, 2-si sökülmüş vəziyyətdə idi. Bundan başqa 25 ədəd tam işlək pulemyot və 7 ədəd işləməyən pulemyot toplanmışdı.

Lənkəran dəstəsinin cənub bölgəsində fəaliyyəti ərzində yuxarıda göstərilən silahlardan başqa Muğandakı qüvvələrdən və rus əhalisindən 517 ədəd berdanka tüfəng, 93 ədəd türk tüfəngi, 382 ədəd ov tüfəngi, 289 ədəd müxtəlif silahlar, 36 ədəd süngü, 670 ədəd ingilis patronu, 12454 ədəd berdanka patronu, 26 ədəd səhra bombası, 3 ədəd aeroplan bombası, 15 ədəd qılınc və 40 ədəd xəncər alınmışdı. Bütün bu silahlar sonradan Lənkəranda təşkilinə başlanan köməkçi tabora təhvil verilmişdi.

1919-cu ilin sentyabrında Bakı hərbi limanının, təyyarə dəstəsinin, zirehli avtomobillər taqımının, mövqe batareyasının ştatlarının hazırlanmasına başlandı. Sentyabrın 14-dən təyyarə dəstəsinin və zirehli avtomobillər dəstəsinin, sentyabrın 24-dən mövqe batareyasının, oktyabrın 1-dən isə "Astarabad" hərbi gəmisinin ştatları qüvvədə sayıldı.

6-cı Göyçay piyada alayının formalaşdırılması da böyük sürətlə aparılırdı. Qışlıqların çatışmaması, geyim, ərzaq çətinlikləri olmasına baxmayaraq, 1919-cu il oktyabrın sonuna qədər alayın təşkili demək olar ki, başa çatdırıldı.

Formalaşma prosesinin necə getməsi barədə hissə komandirləri mütəmadi olaraq hesabat verirdilər. Həmin hesabatlar həm diviziya komandirinə, həm Ümumi qərargaha, həm də Baş Ərkanihərbə göndərildi. Hissə komandirləri komplektləşmənin, silah və texnika ilə təchizatın vəziyyəti, işlək silahların miqdarı, xarab silahların bərpası, şəxsi heyətin əhval-ruhiyyəsi, ərzaq, geyim və tibbi vəziyyəti, təlim-tərbiyənin gedişi, fərariliyin vəziyyəti, qoşunların yerləşdirilməsi və sənədləşmənin aparılması barədə yuxarı orqanlara məlumat verməli idilər. Bütün bu məsələləri özündə birləşdirən xüsusi hesabat forması hazırlanmışdı ki, onların öyrənilməsi rəhbər orqanlara formalaşma prosesini daimi nəzarət altında saxlamaq imkanı verirdi.

1919-cu ilin sonuna kimi Lənkəran köməkçi (ehtiyat) taboru alaya çevrilərək 7-ci Şirvan alayı adlandırıldı, Bakı İstehkamat Hissəsinin müdafiə taboru yaradıldı, süvari, piyada alaylarının, əlahiddə taborların və hərbi məktəbin döyüş bayraqlarının təsviri təsdiq edildi.

1919-cu ilin sonlarından etibarən qoşun hissələri, əlahiddə taborlar və hərbi məktəb üçün döyüş bayraqlarının tətbiqinə başlandı. Bu bayraqlar da milli dəyərlər əsasında hazırlanmışdı və onun verildiyi hissənin Azərbaycan Ordusuna məxsusluğunu təsdiq edirdi. Bayraqlar eyni təsvirə malik idilər. Onların layihəsinin hazırlanması Nazirliyin hərbi topoqrafiya şöbəsinə tapşırılmışdı və həmin layihə hazırlanarkən milli simvolların istifadəsinə, milli ənənələrə bağlı müəyyən elementlərin tətbiqinə xüsusi diqqət yetirilmişdi.

Döyüş bayrağı - parça, lent, ucluq, ağac və dəstəkdən ibarət idi. Parça gümüşü saçaqlarla tamamlanan, kənarlarına naxış vurulmuş mavi rəngli stof ipəkdən və atlasdan ibarət idi. Bayrağın o biri üzünün naxışı görünməsin deyə parça ikiqat bükülmüşdü. Yuxarı sol küncündə gümüşü saplarla səkkizguşəli ulduz və aypara çəkilmişdi. Bayrağın kənarı ilə işlənmiş naxış şərqin böyük sərkərdəsi Teymurləngin Səmərqənd şəhərindəki qəbrinin üzərində olan təsvirdən götürülmüşdü və Azərbaycan Ordusunun döyüş bayrağında şərqin qəhrəmanlıq ənənələrinə sadiqliyini təcəssüm etdirirdi. Bayrağın bir üzündə ərəb hərfləri ilə "Azərbaycan" sözü, o biri üzündə isə Qurandan ayə - "Nəsri min Allah və fəthi qərib" (Allahdan kömək olarsa qələbə yaxındadır) yazılmışdı. Bayrağın lentləri 15 santimetr enində yaşıl və qırmızı parçadan hazırlanmışdı və ucluqları 10 santimetr uzunluğunda saçaqlarla tamamlanmışdı. Qırmızı lentin üzərində gümüşü saplarla 7 ox olan ox qabı, nizə və iki yay çəkilmişdi. Yaşıl lentin üzərində də gümüşü saplarla içində 7 ox olan ox qabı, iki yay, boncuq və Teymurləngin nizəsinin rəsmi işlənmişdi. Lentlər bayraq ağacının yuxarısına düyünlənirdi. Bayrağın ucluğu 5 hissədən ibarət idi: klnus, silindr, kürə (şar), kəsik elliposid və nizə. Bayraq ağacı 2,6 metr uzunluğunda və 3,7 santimetr diametrində olmalı idi. Dəstək gümüşü silindrdən ibarət olub, bayraq ağacının qurtaracağına geyindirilirdi. Dəstəyin aşağı və yuxarı qurtaracağı 2,5 millimetrlik qızılı haşiyə ilə əhatə edilmişdi. Daha sonra 1,5 millimetr enində qızılı haşiyə ilə tamamlanmış mavi mina var idi. Qızıl haşiyənin arasında yuxarı künclərdə Azərbaycan ulduzları nəqş olunmuş, aşağı künclərdə isə qızıldan aypara ziqzaq, daha sonra bayrağın rəngləri ilə boyadılmış, kürəciklərlə bəzədilmiş qabarıq gümüşü halqadan keçirdi. Dəstəyin gümüşü hissəsində bayrağın məxsus olduğu hissənin adı və həmin hissənin yaranma tarixi həkk olunudu.

Döyüş bayrağının təsvirinin elan olunması ilə bağlı nazirin əmrində deyilirdi ki, təsdiq olunmuş layihənin əsasında indiki dövrdə xalqın milli şüurunun inkişafı, məscid və kitablarda, habelə böyük Teymurləng və onun davamçıları tərəfindən inşa edilmiş tikililərdə əks olunmuş qədim memarlıq nişanələri dayanmışdır ki, onlar indi 8-ci Ağdaş piyada alayının və Zəngəzurda yerli əhalidən ibarət xüsusi hərbi hissələrin formalaşdırılması ilə başa çatdırıldı.

Bütün bu təşkilatı işləri həyata keçirməklə Hərbi Nazirlik 1919-cu ilin sonunadək Azərbaycan Ordusunun şəxsi heyyətinin sayını isə 5 min başa çatdırmalı idi. Nəzərdə tutulmuşdu ki, ilin sonunadək atların sayı 10 min baş olacaqdır.

Ordunun sayının il ərzində iki dəfə artırılmasına nail olmaq üçün 1920-ci ilin elə ilk günlərindən çox geniş quruculuq işlərinin aparılması planlaşdırıldı. Tərtib edilmiş fəaliyyət planına görə il ərzində aşağıdakı hissələr yaradılmalı idi: 1) 9-cu piyada alayı, 2) 9-cu piyada alayının yaradılması ilə 3-cü piyada diviziyasının qərargahı təşkil edilməli, 7-ci Sirvan, 8-ci Ağdaş və 9-cu piyada alayları bu diviziyaya tabe etdirilməli idi; 3) 4-cü süvari alayı; 4) iki qaubitsa batareyası; 5) qaubitsa divizionunun qərargahı; 6) bir dağ-süvari batareyası; 7) dağ-süvari divizionunun qərargahı; 8) üç batareyadan ibarət yüngül səhra divizionu və onun qərargahı; 9) hər biri bir bölük həcmində olan dörd məhəlli komanda və hər biri yarım bölükdən ibarət olan üç məhəlli komanda. bu məhəlli komandalar səfərbərlik idarələrinin yanında yaradılmalı və çağırışçıların xidmət yerinə çatdırılması ilə məşğul olmalı idi.

Bütünlükdə qısa müddət ərzində döyüşkən və hazırlıqlı bir ordu yatarmaq mümkün oldu və bu ordunun köməyi ilə 1920-ci ilin Novruz bayramı günlərində Qarabağ ətrafında başlanan kütləvi erməni hərbi təcavüzünün qarşısını almaq mümkün oldu.

Ümumən, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkili Azərbaycanın hərb tarixində və bütünlükdə Azərbaycan xalqının tarixində əhəmiyyətli bir hadisə idi. Çünki hər şeydən əvvəl bu ordunun yaradılması ilə Azərbaycanda nizami ordu quruculuğunun əsası qoyuldu və Azərbaycanda silahlı qüvvələr quruculuğu tarixində xarakter etibarı ilə tamamilə yeni bir səhifə açıldı. XX əsrin əvvəllərində yenidən reallığa çevrilən Azərbaycan Ordusu quruculuğu yeni və mütərəqqi dəyərlər üzərində aparılırdı və həmin dəyərlər şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin mahiyyətindən irəli gəlirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun ən yaxşı ənənələri bizim müasir və güclü ordumuzun simasında öz əksini tapmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən tarixi reallığa çevrilən və bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək səviyyəsinə çatan Azərbaycan Ordusu təchizat səviyyəsinə, döyüş hazırlığına, şəxsi heyətinin mənəvi keyfiyyətinə, idarəetmə strukturlarının peşəkarlığına görə dünyanın ən güclü ordularından biridir. Son illər ərzində Azərbaycan Ordusunun siması tamamilə dəyişilmişdir. Bu ordu xalqımızın sevic, qürur və güvənc yerinə, Ali Baş Komandanın bütün əmrlərini yerinə yetirməyə qadir olan bir orduya çevrilmişdir. 2016-cı ilin aprel döyüşləri də bunu nümayiş etdirdi. Həmin döyüşlərin uğurları bizim böyük qələbəmizin başlanğıcıdır. Bu uğurun sona çatdırılacağı gün isə hec də uzaqda deyil. Azərbaycan Ordusunun gücü bizdə belə bir əminlik yaradır.

**Ehtiyatda olan polkovnik**
**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru**

# Mübarizə tariximizin şanlı səhifəsi

*Tariximizə qanla yazılmış 20 Yanvar faciəsinin baş verdiyi günlərdən bizi 28 illik bir zaman fasiləsi ayırır. Bu hadisələrin iştirakçısı olan şəhər sakinləri ilə söhbət etdikcə soyuq şənbə gecəsində baş verən qanlı hadisələr kino lenti kimi gözlərimiz önündə yenidən canlanır. İlk həmsöhbətim olan Namiq Qasımov 20 Yanvar gecəsində şahidi olduğu hadisələrdən ürək ağrısı ilə danışdı:*

- 20 Yanvar faciəsi heç vaxt yaddaşımdan silinməyəcək. Həmin gecə çalışdığım İlham Allahverdiyev adına Gəmiqayırma və Gəmi Təmiri Zavodunun fəhlələri ilə Badamdar qəsəbəsinin yaxınlığında yerləşən, el arasında "Qurd qapısı" kimi tanınan yerdə dayanmışdıq. Havanın çox soyuq və küləkli olmasına baxmayaraq, buraya xeyli adam toplaşmışdı. Məqsədimiz şəhərimizə girmək istəyən qoşunların qarşısını kəsmək idi. Böyük bir tonqal çatıb ətrafında dayanmışdıq. Heç kimin evinə qayıtmaq fikri yox idi. Gecənin bir aləmində yanımıza bir dəstə adam gəlib dedi ki, daha burada dayanmağın mənası yoxdur. Qoşunlar metronun "XI Qızıl ordu" stansiyası tərəfdən şəhərə giriblər. İndiki Mətbuat prospekti ilə yüksək sürətlə irəliləyirdik. Yollarda maşın olmadığından işıqforlara da məhəl qoymurduq. Məqsədimiz hadisə yerinə tez çatmaq idi. Bakı Dövlət Universitetinin yanına çatanda uzaqdan tankların bizə tərəf şütüdüyünü gördük. Düşündük ki, indicə bizə atəş açacaqlar. Amma onlar bizə güllə atmasalar da, məcbur etdilər ki, yolumuzun səmtini dəyişib metronun "Elmlər Akademiyası" stansiyasına tərəf düşək. Başqa çıxış yolumuz olmadığından onların tələblərinə əməl etdik. Metronun yanından sağa dönüb geri qayıtdıq. Bu yolda hərbçilər gözə dəymirdi. 20 nömrəli məktəbin yanından da sağ tərəfə döndük ki, Badamdar qəsəbəsinə gedək. Elə bir az yuxarı qalxmışdıq ki, zirehli texnikalar nərilti-gurultu sala-sala buradakı yol dairəsinin yaxınlığında qabağımızı kəsib avtobusumuzu mühasirəyə aldılar. Gecənin bu vaxtında şəhərimizə soxulmuş Sovet əsgərləri üstümüzə qışqırıb bir-birilərinə deyirdilər ki, bunlar "boyeviklər"dir. Bizi mühasirəyə alandan sonra bir-bir yerə düşməyimizi əmr etdilər. Sifətlərindən vəhşilik yağan bu əsgərlər bizimlə çox kobud davranırdılar. Avtomatlarının qundağı ilə vura-vura bizi üzü üstə asfalta uzadıb ciblərimizi axtarmağa başladılar. Bu, qaniçən cəlladlar elə bilirdilər ki, biz silahlıyıq. Əynimdəki kiteli, başımdakı papağı görən quldurlar barmaqlarını mənə tuşlayıb "afqanes" dedilər. Mənim üstümü lap ciddi yoxladılar. Silah tapmayandan sonra onlardan biri yüksək səslə nalayiq söyüşlər söydü. Mən də həmin söyüşlərlə ona cavab qaytardım. Gözləmədiyi bu cavabdan əsəbiləşən quldur məni avtomatın qundağı və süngüsü ilə vurmağa başladı. Güclü zərbələr nəticəsində həm başımdan, həm də qolumdan yaralandım. Süngü dəyən yerlərdən qan axırdı. Səs-küyə qonşu binaların eyvanlarına çıxanlar hərbçilərə yalvarırdılar ki, rəhmə gəlib bizi öldürməsinlər. Gözləri qızmış sərxoş imperiya əsgərləri bu anlarda heç kimi eşitmək istəmirdilər.




Qəflətən yanımızda peyda olan zabit onların üstünə qışqırandan sonra əsgərlər rədd olub getdilər. Tanklarına minməzdən əvvəl hərbçilərdən biri bizi gəzdirən avtobusun mühərrikini işə salıb, ötürücünü keçirib, sükanı buraxıb özü yerə tullandı. İdarəolunmayan avtobus bir az irəli gedib işıq dirəyinə dəyib dayandı. Zərbənin gücündən qabaq şüşə çilik-çilik olub yerə töküldü. Əsgərlər gedəndən sonra iş yoldaşlarım başıma yığışdılar. Yaralarımdan axan qan kəsilmək bilmirdi. Sürücü tələsik maşını işə salmaq istdədi ki, məni xəstəxanaya çatdırsın. Amma mühərriki işə sala bilmədi. Məlum oldu ki, quldurlar gedərkən maşının açarını da özləri ilə aparıblar. Axır ki, çox əlləşəndən sonra avtobusun mühərriki uğuldadı. Amma şəhərdə atışma getdiyindən küçələrə çıxıb xəstəxanaya getmək də təhlükəliydi. Şəhər imperiya əsgərləri və zirehli texnikalarla dolu idi. Böyük çətinliklə yaşadığım 20-ci sahəyə qayıda bildim. Qonşuluğumuzda tibb bacısı yaşayırdı. Gecənin yarısı olsa da, onu yuxudan oyatdım ki, yarama baxsın. Sağ olsun şəfqət bacısı, yarama dava-dərman qoyub başımı sarıdı. Səhər tezdən şəhərə çıxanda küçə və prospektləri qan içində gördüm. Sovet əsgərləri öz ölkəsinin dinc, əliyalın və heç bir günahın sahibi olmayan vətəndaşlarını böyük amansızlıqla, vəhşiliklə qətlə yetirmişdilər. Ağrı-acısını yaşadığımız o gecəni heç vaxt yaddan çıxarmayacağam. Sovet əsgərlərinin amansızlığı bizi mübarizə yolumuzdan döndərmədi. Axır ki, arzumuza çatdıq, ölkəmiz müstəqilliyinə qovuşdu.

- O dəhşətli günlərdə ölkəmizin paytaxtında baş verən hadisələrdən çox narahat idim, - deyə şəhid anası Lyudmila Bessantina söhbətimizə davam etdi: - Nəsə ürəyimə dammışdı ki, qorxulu hadisələr olacaq. Amma bir neçə gündən sonra övladımı itirəcəyimi heç ağlıma da gətirmirdim. Yanvarın 19-da erkən yatmağımıza səbəb televiziyanın yayımını dayandırması idi. Gecə yarıdan sonra tankların gurultusuna, silahların şaqqıltısına yuxudan ayıldıq. Öz-özümə sual verdim: aman Allah, bu nə atışmadır, güllələri hara və kimə atırlar? Biz İnşaatçılar prospektindəki "Olimp" mağazası yerləşən binanın beşinci mərtəbəsində yaşayırdıq. Özüm-özümə verdiyim suallara cavab tapmaq üçün pəncərəyə yaxınlaşıb küçəyə baxmaq istədim. Mənimlə bərabər yuxudan oyanan 17 yaşlı qızım Vera da küçədə nələr baş verdiyini öyrənmək üçün işığı yandırıb pəncərədən aşağı boylandı. Bu vaxt pəncərəmiz atəşə tutuldu. Bir göz qırpımında şüşələr çilik-çilik olub yerə töküldü. Tez geri çəkilib döşəmənin üstünə uzandıq. Vera "ay ana, məni vurdular," - deyib yerə yıxıldı. Tez özümü onun üstünə atdım. Qızımı qan içində görəndə dəhşətə gəldim, ağlım başımdan çıxdı. İmperiya əsgərləri Veranı vurmuşdular. Aman Allah, bu nə işdir başıma gəlir? İndi mən nə edim, başıma nə çarə qılım, qızımı xəstəxanaya necə çatdırım? Çaşıb qalmışdım, nə edəcəyimi bilmirdim. İlk ağlıma gələn bu oldu ki, təcili yardıma zəng vurum. Nömrəni yığıb həkim çağırdım, ünvanı dedim. Çox keçmədi ki, təcili yardım maşını gəldi. Onda Vera özündəydi, bizimlə danışırdı. Onu aşağı düşürüb ehtiyatla maşına qoyduq. Qızımı bu vəziyyətdə tək qoya bilməzdim. Ona görə də tez keçib maşında oturdum. Binanın arxasından dönüb küçəyə çıxdıq. Elə hey sürücünü tələsdirirdim ki, yolda ləngiməsin, bizi xəstəxanaya tez çatdırsın, Veranın həyatını xilas edək, onu ölümdən qurtaraq. İlahi, şəhərimizin küçələri nə gündə idi! Zirehli, tırtıllı texnikaların gurultusu, avtomat və başqa silahlardan açılan atəş səsləri hər tərəfi başına götürmüşdü. Qaniçən imperiya əsgərləri bir neçə yerdə maşınımızın qabağını kəsdilər. Yaralı apardığımızı bildirib çətinliklə də olsa irəliləyirdik. Şəfa ocağına vaxtında çatsaydıq, bəlkə də həkimlər qızımın həyatını xilas edə bilərdilər. Amma başımıza bədbəxt hadisə gəldi. Silahlı quldurlar xəstəxanaya çatmağa az qalmış yaralı aparan təcili yardım maşınını atəşə tutdular. Sürücü yararsız hala düşmüş maşını çətinliklə də olsa yolun kənarına çəkib saxladı. Qızıma tibbi yardım edən həkimin özü də ağır yaralanmışdı. Belə ağır vəziyyət yarandığını görən sürücü maşındakı rabitə vasitəsilə ikinci yardım briqadası çağırdı. Qızımın vəziyyəti ağırlaşırdı. Xeyli gözlədikdən sonra təcili yardım maşını gəlib çıxdı. Veranı da, həkimi də həmin maşına qoyub yolumuza davam etdik. Amma artıq gec idi, 17 il sevə-sevə böyütdüyüm, özümdən də çox sevdiyim qızım Vera keçinmişdi, gözlərini əbədi olaraq yummuşdu. O gözlər bir daha açılmayacaq, bizə baxmayacaqdı. Dünya-aləm başıma fırlandı, sarsıldım, bütün varlığım titrədi. Qızımın qatilləri bir vaxtlar şəninə sülh mahnıları qoşulmuş Sovet əsgərləri idi. Ağlamaqdan göz yaşlarım da qurumuşdu, qışqırmaqdan səsim batmışdı. Başqa şəhidlər kimi Vera da böyük ehtiramla Xiyabanda dəfn edildi. Buna görə Azərbaycan xalqına, qızımın xatirəsini əziz tutan bütün insanlara dərin minnətdarlığımı bildirirəm...

Bəli, o faciədən illər ötsə də, xalqımız azadlığı və müstəqilliyi uğrunda şəhid olan oğul və qızlarını heç vaxt unutmayacaq. Çünki onların adı xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazılıb.

**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər: hadisələr, faktlar

## Çində hərbi təyyarə təlim zamanı qəzaya uğrayıb



Çin hərbi hava qüvvələrinin təyyarəsi təlim uçuşu zamanı qəzaya uğrayıb.

Quycou vilayətində keçirilən təlimdə təyyarə dağa çırpılıb.

Hələlik pilotların taleyi barədə məlumat yoxdur. Hadisə yerində axtarış işləri aparılır.

## İraqda amerikalı pilotların səhvi təhlükəsizlik qüvvələrinin 7 əməkdaşının ölümü ilə nəticələnib



ABŞ helikopteri İraqın Əl-Ənbar əyalətinin Əl-Bağdadi rayonunda səhvən təhlükəsizlik qüvvələrinin avtomobillərini atəşə tutub.

Hadisə nəticəsində 7 nəfər həlak olub, 11 nəfər yaralanıb. İnsident zamanı, həmçinin yerli qəbilənin şeyxi ilə görüşə gedən polis rəhbəri və administrasiya başçısının avtomobilləri də atəşə məruz qalıb.

İraqın anti-terror birləşməsinin komandanlığı isə öz növbəsində həmin rayonda beynəlxalq koalisiyanın havadan dəstək verdiyi xüsusi əməliyyatın keçirildiyini bildirib. Onun sözlərinə görə, fəaliyyət əvvəlcədən razılaşdırılmadığı üçün təhlükəsizlik qüvvələri silahlı qrupla səhv salınıb.

## Kabildə hərbi akademiyaya hücum zamanı həlak olanların sayı 11 nəfərə çatıb



Kabildə hərbi akademiyaya hücum nəticəsində həlak olanların və zərər çəkənlərin sayı artıb.

Ölənlərin sayı 11 nəfərə çatıb, daha 16 nəfər yaralanıb.

Yanvarın 29-da səhər bir qrup silahlı şəxs Kabildə yerləşən Marşal Fəhim adına hərbi akademiyaya hücum edib. Təhlükəsizlik qüvvələri təhsil müəssisəsinə gedən yolu bağlayıb. Akademiyanın ərazisində atəş və partlayış səsləri eşidilib. Hücumda 5 silahlı iştirak edib. Onların 4-ü öldürülüb, biri isə sağ ələ keçirilib.

Hücumun məsuliyyətini İŞİD qruplaşmasının öz üzərinə götürdüyü bildirilir.

Bundan bir müddət əvvəl, yanvarın 20-də isə "Taliban" hərəkatının silahlıları Kabildə "Intercontinental Hotel" mehmanxanasına hücum etmişdilər. Nəticədə 43 nəfər, o cümlədən çox sayda xarici ölkə vətəndaşları həlak olmuşdu. ABŞ Dövlət Departamenti bu terror aktının qurbanları sırasında 4 amerikalının da olduğunu təsdiqləyib.

## Ukraynadan Slovakiyaya qanunsuz keçmək istəyən Ermənistan vətəndaşları saxlanılıblar



Ukraynadan Slovakiyaya qanunsuz keçmək istəyən Ermənistan vətəndaşları saxlanılıb.

Karpatda sərhədçilər Ermənistan vətəndaşları olan iki kişi və qadını saxlayıblar. Onların bələdçinin köməyi ilə Ukrayna-Slovakiya sərhədini qanunsuz keçməyə cəhd göstərdikləri müəyyənləşib. Bundan sonra hüquq-mühafizə orqanları yaxınlıqda olan Ujqorod şəhəri ərazisində Ermənistan vətəndaşlarına köməklik edən bələdçini saxlayıblar. Onun üzərindən külli miqdarda xarici valyuta, bank kartları və digər sənədlər aşkarlanıb.

Məlumatda bildirilib ki, Ermənistan vətəndaşlarının şəxsiyyətləri müəyyənləşdirildikdən sonra onlar inzibati məsuliyyətə cəlb olunacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasının adyunktura bölməsinə qəbul elan edilir

Müdafiə nazirinin müvafiq qərarı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının adyunktura bölməsinə qəbul elan edilir.

Qəbul cari il üçün fəlsəfə və elmlər doktoru proqramları üzrə aparılır.

Qəbul "73-Milli təhlükəsizlik və hərbi elmlər" sahəsinə aid bir neçə ixtisaslar üzrə elan olunur:

- Hərbi nəzəri;
- Hərbi xüsusi elmlər;
- Hərbi təbabət;
- Milli təhlükəsizlik.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan, ali təhsilli (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə həkim və həkim-mütəxəssis), həmçinin pedaqoji və ya elmi-tədqiqat işində bacarığı olan zabitlər (qulluqçular) qəbul edilir. Mülki ali təhsil müəssisələrini bitirən, bundan əlavə, zabit vəzifələrində 2 ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdır.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmaq qabiliyyətinə və "fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsinə malik zabitlər (qulluqçular) qəbul edilir.

Raporta çap olunan elmi işlərin siyahısı və ya seçilən ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə), ali təhsil müəssisəni bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış zabitlər (qulluqçular) üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə), xidməti (iş yerindən) xasiyyətnamə, kadrların şəxsi-qeydiyyat vərəqi, tərcümeyi-hal, 2 ədəd foto (3x4 ölçüdə), şəxsiyyəti təsdiq edən sənədin surəti, çap edilən elmi əsərlərin siyahısı (elmlər doktoru hazırlığı üzrə), "Elmlər doktoru" elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış zabitlər (qulluqçular) üçün təkrar attestasiya (nostrifikasiya diplomu), dissertasiyanın açıq planı və bu plana dissertasiyanın aid olduğu sahə üzrə iki hərbi təşkilat, yaxud müvafiq ixtisas üzrə elmlər doktoru elmi dərəcəsi olan iki mütəxəssisdən alınmış yazılı rəy (elmlər doktoru hazırlığı üzrə) sənədləri əlavə edilməlidir.

Toplanılan sənədlər raportla birlikdə iyunun 1-dək Silahlı Qüvvələrinin Hərbi Akademiyasına göndərilməlidir.

**Ünvan:**
Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, Qızıl Şərq şəhərciyi, Silahlı Qüvvələrin Hərbi Akademiyası.

**Əlaqə telefonu:**
(012) 404-18-31;
(050) 317 33 61.

**E-mail:**
doktorantura@box.az

# Ermənistan ordusunda kriminal hadisələr

Bu günlərdə işğal altında olan Hadrut yaşayış məntəqəsində yerləşən düşmən ordusunun bölmələrindən birində növbəti cinayət hadisəsi baş verib. Posta xidmət edən erməni əsgərlər arasında baş verən davadan sonra onlar silaha əl atıblar. Nəticədə Vanus Hovanisyan adlı hərbi qulluqçu xidmət yoldaşı tərəfindən güllələnib.

Hadisənin Ermənistandan çağırılan hərbi qulluqçularla Qarabağdan olan əsgərlər arasında baş verdiyi bildirilir. Cinayətdə iştirak edənlərdən birinin Yerevanın Arabkir hərbi komissarlığından hərbi xidmətə çağırıldığı məlumdur. Bu barədə post başçısı Amiryan xəbər verib və hərbi hissə komandiri Aram Hayiryan faktı təsdiq edib.

* * *

Ermənistan ordusunda daha bir cinayət hadisəsi baş verib. Mübahisə edən əsgərlərdən biri digərinə atəş açıb.

İlkin məlumat olaraq əsgərin guya atəşkəsin pozulması nəticəsində yaralandığı bildirilib. Lakin sonradan Noyemberyan rayonundan xidmətə çağırılan müqaviləli əsgər Adibek Mikoyanın istintaqa cəlb edilməsi məlumatın yalan və növbəti cinayət hadisəsi olduğunu ortaya çıxarıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# "Rubej-ME" idarəetmə məntəqəsi



Qırıcı aviasiya alayı üçün nəzərdə tutulmuş "Rubej-ME" avtomatlaşdırılmış idarəetmə sistemi mərkəzləşdirilmiş idarəetmə rejimində ərazi qruplaşmasının və lokal qruplaşmaların tərkibində əməliyyatları idarə etmək üçün nəzərdə tutulub. Bu sistem qırıcı aviasiya alayının vasitələrini döyüş hazırlığına gətirəcək, avtomatlaşdırılmış işçi yerlərindən ekranında məlumatların qəbulunu, emalını həyata keçirəcək, hava ərazisi və döyüşün nəticələri haqqında məlumat verəcək. Komanda məntəqəsindən döyüş fəaliyyəti üzrə sərəncamların qəbulu və bu informasiyaların alınması haqqında məlumatları komanda məntəqəsinə çatdıracaq. Radiolokasiya informasiya idarəetmə mənbələrinə komandanın verilməsini təmin edəcək, döyüş əməliyyat məntəqələrinə komandaların verilməsini, qonşu komanda məntəqələri və zenit-raket hissələrinin qırıcı aviasiya alayları ilə qarşılıqlı fəaliyyətini, həmçinin hərbi iş üzrə sənədlərin və hesabat işlərinin sənədləşdirilməsini həyata keçirəcək. Onun döyüş dəstinə tuşlama məntəqəsi, stasionar variantlı avtomatlaşdırılmış aparat, ötürücü-qəbul mərkəzi, dizel-elektrik stansiyası əsasında işləyən enerji təminat sistemi və s. daxildir.

"Rubej-ME" avtomatlaşdırılmış idarəetmə sistemi bütün növ nəqliyyat vasitələri - dəmiryol, su, hava və avtomobillə daşınır. İdarəetmə sistemi radioaktiv, zəhərləyici və bakterioloji maddələrdən qorunmaq üçün isitmə, ventilyasiya və kondisioner sistemi ilə də təmin edilib. Döyüşə hazırlıq müddəti üç dəqiqə ərzində yerinə yetirilir, operativ hesabı 15 nəfərdən ibarətdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Güləşçilərimiz "Təxti Kuboku" beynəlxalq turnirində iki medal qazanıblar



İranın Məhşəhr şəhərində yunan-Roma güləşi üzrə böyüklər arasında ənənəvi "Təxti Kuboku" beynəlxalq turniri başa çatıb.

Yığmamızın üzvləri turniri 1 qızıl və 1 bürünc medalla tamamlayıblar.

Bütün rəqiblərini üstələyən Orxan Nuriyev (97 kq) turnirin qızıl medalına sahib olub. Həlledici görüşdə güləşçimiz Türkiyə təmsilçisi, Rio Olimpiadasının bürünc medalçısı Çenk İldem üzərində inamlı qələbə qazanıb.

Bürünc medalı isə yığmamıza Türmən Eyyubov (97 kq) qazandırıb. Üçüncü yer uğrunda görüşdə idmançımız İran təmsilçisi Mohammed Yeganehlə gərgin keçən qarşılaşmadan qalib ayrılıb.

## Abdulla Qədimbəyli şahmat üzrə Azərbaycan çempionu olub

Beynəlxalq dərəcəli usta Abdulla Qədimbəyli (2002-ci il təvəllüdlü) 9 mümkün xaldan 7 xal toplayaraq və onunla bərabər nəticə göstərən yaşıdı, FIDE ustası Rəvan Əliyevi əlavə göstəricilərə görə geridə qoyaraq kişilər arasında şahmat üzrə 2018-ci ilin Azərbaycan çempionu olub.

Bir xal geridə qalan Məhəmməd Muradlı (2003-cü il təvəllüdlü) üçüncü, Nail Bəşirli (2000-ci il təvəllüdlü) dördüncü yerləri tutublar.

İsveçrə sistemi üzrə keçirilmiş və 9 turdan ibarət yarışda bir partiya üçün vaxta nəzarət ilk 40 gediş üçün 90 dəqiqə, sonra birinci gedişdən başlayaraq hər gedişə 30 saniyə əlavə olunmaqla partiyanın sonuna qədər 30 dəqiqə olub.

## Karateçimiz Rafael Ağayev Paris Premyer Liqa turnirində ikinci olub



Karate üzrə Azərbaycan milli komandasının lideri Rafael Ağayev (75 kq) Parisdə Premyer Liqa turnirində ikinci yeri tutub.

Karateçimiz yaponiyalı idmançı Ken Nişimura ilə həlledici görüşün son saniyələrində qələbəni əldən verib.

Yeni qaydalara əsasən, medal yalnız yarışın qaliblərinə təqdim olunub. Görüşlərini qələbə ilə başa vuran idmançılarımız dünya reytinq cədvəlində xallarını artırıblar. "Kiçik dünya çempionatı" adlandırılan Paris Premyer Liqasında 81 ökədən 756 idmançı mübarizə aparıb.

Dünya Karate Federasiyasının (WKF) 2018-ci ildə yeddi yarışlıq nüfuzlu Premyer Liqa seriyasından növbəti turnir fevralın 16-18-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək.

## "Qarabağ" və "Azəryol" həndbol komandalarının qarşılaşması heç-heçə başa çatıb

Qadın həndbolçular arasında Azərbaycan çempionatında iki oyun keçirilib.

Hər iki qarşılaşma gərgin və maraqlı idman mübarizəsi ilə yadda qalıb.

Günün mərkəzi oyununda "Qarabağ" və "Azəryol" kollektivləri üz-üzə gəliblər. Bərabər səviyyəli oyun nümayiş etdirən hər iki komandanın görüşündə qalib müəyyənləşməyib - 24:24.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 34
Nüsxə 3550